***Pifaqorun sözüdür, deyib ki, həyat rəqəmlərdən ibarətdir. Bir az düşünəndə Pifaqorun böyüklüyünə qibtə etməmək olmur. Bir də baxıb görürük ki, ömrümüz rəqəmləri saymaqla keçir. Rəqəmlər də insanlar kimidir. Taleli, talesiz... bəxti qara rəqəmlər də var... xoşbəxt rəqəmlər də. Mən 44 rəqəmini bəxtli rəqəm, xoşbəxt, müqəddəs rəqəm sayıram. Ömrümüzün müqəddəs 44 günü... Həyatımıza məna verən, ömrümüzü gözəlləşdirən 44 gün. Qanla yazılan şərəfli tarix. Canını Vətənə qurban demiş igidlərimizi, Vətənin bir parçası olan oğullarımızı zirvəyə aparan müqəddəs 44 gün... Şərəfin, ləyaqətin dönüşünün başlanğıc məqamı. Utanca, 30 illik rəzalətə son qoyan 44 gün... 30 illik bir məsafənin 44 günə dönüşü..... Hər saniyəsi intizar, həyəcan, sevinc, kədər, ölüm, qan qoxulu, zəfər soraqlı 44 gün. Bütöv bir xalqın əllərinin Tanrı dərgahına tuşlandığı həyəcan, intizar, həsrət dolu 44 gün...***

# Zəfər Günəşi...



Mən heç vaxt göylərə bu qədər baxmamışdım. Tanrıya bu qədər əl açıb yalvarmamışdım. Allahdan bu qədər Qələbə istəməmişdim. Bilirdim ki, qələbənin yolu ölümdən keçir. İki daş arasında qalmışdım. Biri qələbə, bir də ölümü öldürüb ölümün üstünə gedən oğullarımızın taleyi… Tanrı bu 44 gündə bizə Qələbə verdi. Bunu biz istədik, Tanrı da verdi… Bu, təkcə istəklə deyildi. Bundan ötrü minlərlə can özünü Vətənə, o müqəddəs Qələbəyə fəda etdi…

Mən Viktor Hüqonun "Səfillər"indən balaca bir qızcığaz tanıyıram. Bu qızcığazın oynamağa heç vaxt gözəl-göyçək kuklası olmamışdı. Günlərin bir günü bu qızcığaz zibillikdən bir məftil tapıb köhnə əski parçasına bükərək özünə bir kukla düzəltdi. Ona lay-lay çaldı. Göz yaşları ilə onu yudu. Sonra qucağına alıb onu sinəsinə sıxdı… Ona elə gəldi ki, Tanrı göydən düşüb onunla yanaşı addımlayır. Biz Tanrının göydən düşüb bizimlə yanaşı addımlamasını düz 30 il gözlədik. Göylərə baxıb ağlamaqdan anaların göz yaşı qurudu. Allahdan imdad diləməkdən gözümüzün nuru getdi. Millət yerindən, yurdundan dərbədər oldu. Xalqın ev-eşiyini tonqala çatdılar. Yurdumuzu xaraba qoydular. Cənnət Qarabağımızı xarabazara çevirdilər. Göylər nakam, sərgərdan ruhların oylağına çevrildi. Vətən torpağının bir parçası yağı tapdağının altında qalıb inildədi, zarıdı, əzab çəkib, aman dilədi… Torpaq bizi qisasa çağırdı. Vaxt uzandıqca, kimi Vətən həsrəti ilə həyatla vidalaşdı, kimi isə həsrətinin oduna alışıb yandı, içində qovruldu… Bizsə Allahdan imdad dilədik…

Heç şübhəsiz ki, illər, aylar zaman ölçüsüdür. İli, ayı suçlamaq bəlkə də günahdır. Kiminsə səhvi, hikkəsi, təcrübəsizliyi, naşılığı və qətiyyətsizliyi ucbatından ömrümüzdən 30 il çalındı. Düşmənin zalımlığı, fürsətgirliyi, bizə rəhbərlik edənlərin naşılığı, bacarıqsızlığı ucbatından 30 ilimizi itirdik. Ümidimiz itdi… Arzularımız çalındı... bizə rəhbərlik edənlər bizi də, hakimiyyətlərini də Tanrının ümidinə buraxıb, "Hər şeyin zamana ehtiyacı var" dedilər. Belə yerdə deyiblər: bir dəli quyuya bir daş atdı, yüz ağıllı yığılıb çıxara bilmədi.

Zaman ən müdrik hakimdir. Hər şeyi öz yerinə qoya bilir. Zamanın da müdrik, təcrübəli, bu qoca dünyanın gərdişindən baş çıxaran ağıllı adama ehtiyacı vardı. Xoşbəxtlikdən nə əlahəzrət zaman, nə xalq, nə də naşı əlinə düşmüş hakimiyyət öz sahibini çox gözləməli olmadı. Tanrı Heydər Əliyevi bir xilaskar mələk kimi sanki göydən yerə əta etdi. Heydər Əliyev dövləti düşmənin kələyindən, xalqı vətəndaş müharibəsindən, hakimiyyəti naşı əllərdən, insanları ümidsizlikdən xilas etdi. Heydər Əliyev dedikdə göz önünə nəhəng idarəetmə akademiyası, böyük bir siyasi məktəb gəlir. Bu məktəb zəngin praktika ilə fövqəladə idarəetmə qabiliyyətini, elmi əsaslara söykənən zəngin təcrübə və yüksək əxlaqi keyfiyyətləri özündə birləşdirən adillik, müdriklik və uzaqgörənlik məktəbidir. Heydər Əliyev təkcə bu dövləti xilas etməklə deyil, həm də onu əmin əllərə etibar etməklə tarixi bir şəxsiyyət, gerçək bir ümummilli lider kimi tarixə öz möhrünü vurub. Dünyadan köç edərkən öz siyasi varisinə illərdir düşmən əsarəti altında inləyən Şuşanın azad olmasını vəsiyyət etməsi, ömrünü Vətənə, xalqa xidmətdə keçirmiş bir dahinin siyasi portretinin ən incə cizgilərini göstərən parlaq bir nümunədir.

Düşmən bütün hərəkətləri ilə əndazəni aşmışdı. Azərbaycan rəhbərliyinin xoşməramlı çağırışları, münaqişənin sülh yolu ilə həlli variantı bəzən ironiya ilə qarşılanıb, qorxaqlıq kimi qəbul edilirdi. Yersiz bəyanatlar, siyasətdən və əxlaqdan uzaq hədyanlar, torpaqlarımıza olunan ardıcıl silahlı basqınlar azğınlaşmış düşmənə layiq olduğu cavabı verməyi diktə edirdi. Əlahəzrət zaman və məqam yetişmişdi. Boşboğaz düşmənin yersiz bəyanatlarına diplomatik masalarda cavab verilir, eyni zamanda, ordu quruculuğuna, ordumuzun modernləşdirilməsinə, şəxsi heyətin döyüş hazırlığına xüsusi önəm verilirdi. Məqsəd az itki ilə böyük Qələbəyə nail olmaq idi. Bu məqsədlə bütün qoşun növlərində XTQ yaradılır, təlimlərə xüsusi diqqət verilirdi. Necə deyərlər, təlim meydançasında çox tər tökən əsgərin, döyüş meydanında qanı az tökülər prinsipi ilə iş gedirdi.

Ordu quruculuğu ilə yanaşı, dünyanın super gücləri, dünyada söz sahibi olan böyük dövlətlərlə ardıcıl, məqsədyönlü iş aparılır, Azərbaycanın haqq işi ardıcıl və hərtərəfli olaraq düzgün izah edilirdi. Sözün həqiqi mənasında, İlham Əliyev olduqca sürətlə əzəmətli dövlət qururdu. Ölkədə sürətlə dövlət quruculuğu prosesi gedirdi. Keçən dövrün siyasi iqtisadi panoramasına nəzər salsaq, heyrətamiz dəyişikliklərin, Azərbaycan liderinin artan siyasi nüfuzunun və dünya siyasətçiləri arasında söz sahibi olmasının şahidi olarıq.

Gedən proseslər göstərirdi ki, Azərbaycan düşmən təcavüzünə layiqli cavab verməyə tam hazır, qələbə isə labüd idi. Qələbənin labüd olmasını göstərən başlıca səbəb Azərbaycan Prezidentinin qətiyyəti və qələbəyə olan sarsılmaz inamı idi. Amma mənfur düşmən hələ də dərk edə bilmir və anlamaq istəmirdi ki, artıq qətiyyətsiz, səriştəsiz, tərəddüdlər içində çırpınan bir liderlə deyil, dünya siyasi çapında çəkisi, öz dəstxətti olan, dövlətini quran və ordusunu yaradan, xalq tərəfindən sevilən və seçilən bir lider, bir Ali Baş Komandanla üzbəüzdür.

Atalar düz deyib ki, hər şeyin bir sərhədi var. Artıq səbir kasası da dolmuşdu, düşmənin tərbiyəsizliyinin, özbaşınalığının qarşısının alınma vaxtı çatmışdı. Nəhayət, o gün gəlib çatdı. Sentyabrın 27-si… 44 günün başlanğıcı…

Cənab Prezident, müzəffər Ali Baş Komandan xalqın önünə çıxıb düşmənin yeni fitnəsindən, torpaqlarımıza olan təcavüzdən danışdı. Qəzəblə dəmir yumruğunu düyünlədi. Elə həmin andaca xalq bir yumruğa döndü. Prezident xalqın gözündə bir işığa, bir nura, bir Zəfər Günəşinə döndü. Xalq əmin oldu ki, bu yumruq düşmənə həddini bildirmək üçün düyünlənən, həmrəyliyin rəmzi olan, gücü, qəzəbi, düşmənə nifrəti özündə təcəlli edən bir yumruqdur. Bu yumruq düşmənə həddini bilmək üçün düyünlənib.

Həmin günlərdə Günəş göylə yer arasında həna qurmuşdu… Göylə yer qıpqırmızı nura boyanmışdı. Bu qırmızı nur əsgərlərimizi irəliyə, qələbəyə çağırırdı. 44 günün hər səhəri Çanaqqala səhərini xatırladırdı. Ölümü unudan, ölümü öldürən əsgərlərimiz elə vuruşurdular ki, düşmən özünü itirmişdi. Qarşısındakı, 30 il öncəki başıpozuq hərbi birləşmələr deyildi. İlham Əliyevin qurduğu nizami Azərbaycan Ordusu idi.

Vətən müharibəsinin birinci günü... Yer, göy bir-birinə qarışdı. Düşmən hələ onu nə gözlədiyini anlamırdı...

Biz 30 il əvvəlki xalq deyildik. Artıq Mübariz İbrahimov məktəbi keçmişdik. Təkbaşına bir tabordan intiqam almışdı Mübariz! Xalq Mübarizləşmişdi. Olanlardan, keçənlərdən dərs alıb nəticə çıxarmışdı.

Bu illərdə xalq da, ordu da, çətin sınaqlardan çıxıb Polad kimi bərkimişdi, mətinləşmişdi. Ordu bütövlükdə general-mayor Polad Həşimovun əsgərləri olmuşdu. "Canım komandanım" deməyi, o bizə öyrətmişdi. Biz yaxşı bilirdik, bir qarış da, bir kənd də Vətəndi. Can deməyi də, Vətənə can fəda etməyi də ondan öyrənmişdik. Ordu sürətlə, mətin, məğrur İlhamla irəliləyirdi. Ordu öz Ali Baş Komandanından güc alaraq irəliləyirdi… Ordu çoxdan bəri təşnə olduğu qələbəyə sarı gedirdi. Sinəsi hərbə meydan olan Vətənə minlərlə can qurban olaraq irəliləyirdi... Bir ölüb, min dirilirdi oğullarımız. Döyüşçülərimiz şəhid, qazi qardaşlarının yerinə də döyüşürdülər. Yaralananlar yarasını sarıyıb meydanı boş qoymur, düşmənə sarı daha qəzəblə gedirdi… Şəhid olanların son kəlməsi, "Qarabağ Azərbaycandır!", "Vətən sağ olsun" olurdu. Düşmən sarsılmışdı. Təlaş içindəydi. Havadarlarına, himayədarlarına dil açıb yalvarırdı… Düşmən kapitulyasiya aktını imzalamağa məcbur olmuşdu. Azərbaycan Ordusunun gücünü, Azərbaycan liderinin qətiyyətini görmüşdü.

Bir sözlə, o müqəddəs məqam anbaan yaxınlaşırdı. Həmin gecə nə Prezident yatmışdı, nə də xalq... Bütün nəzərlər ekranlara yönəlmişdi... Bədirlənmiş Ay bu sevincdən, bu böyük Qələbədən məst olurmuş kimi xumarlanaraq gülümsər baxışları ilə şölə saçaraq, qəlibləri Qələbə müjdəsi ilə salamlayırdı. Ulduza dönmüş şəhid ruhları Azərbaycan səmasında Qələbə paradı keçirirdilər. Yer də, göy də "Qarabağ Azərbaycandır!" – hayqırırdı… Səhər Azərbaycan səmasında Qələbə Günəşi, azadlıq Günəşi doğdu. Həmin an Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan insanların bəxtinə doğmuş bir Zəfər Günəşi kimi nur saçdı. Qarabağın qara bəxti nura boyandı.

O insanlar qəhrəman ola bilirlər ki, vaxtında düzgün və qətiyyətli qərarlar qəbul etməyi bacarsınlar. Xalqın qəhrəman oğlu, praqmatik siyasətçi, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər şeyi ölçüb biçib, dəqiq hesablamışdı. Elə bu uzaqgörənliyin nəticəsi, xalqa bağılılığın, soyuq səngərlərdə isti qan tökən oğulların daha çox şəhid olmaması, daha çox ananın gözü yaşlı qalmaması, daha çox ailənin işığının sönməməsi üçün onun tədbirli davranışı, uzaqgörənliyi nəticəsində imzalanan razılaşmada illərlə ermənilərin istehkam qurub, güclü müdafiə sistemi yaratdıqları Kəlbəcər, Laçın, hər qarışı minalanmış Ağdam bir güllə atılmadan, qan tökülmədən, şəhid verilmədən geri qaytarıldı.

Noyabr həyatımıza müqəddəs Zəfər ayı, 8 Noyabr müqəddəs Zəfər Günü kimi xalqımızın tarixinə yazıldı. Bu gün bir ildir ki, hər birimiz qürurla, utanmadan, "Mən azərbaycanlıyam!" – deyə bilirik. Bu gün özünü bu Vətənin oğlu sanan hər kəs haqqı olan da, olmayan da bu sevinci yaşayır, fərəhlənir. Bu Qələbə qanla, canla, ağılla, idrakla alındığı üçün çox qiymətlidir. Üç mindən çox ləyaqətli, şərəfli Vətən oğlu bu Qələbə üçün canını fəda etdi. Minlərlə oğlumuz qazi oldu. Sinəsi yaralı Vətəni qanları ilə sulayan oğullarımız bilirdilər ki, Qələbənin məlhəmi igid qanıdır…

Türklərin belə bir deyimi var: "Bir komutan bir ordunu qurar, bir ordu bütöv bir xalqı xilas edər". O, bu ordunu quran qəhrəmandır. Bu qələbənin baş qəhrəmanı, bu ordunun və dövlətin qurucusu cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevdir. O, təkcə Qarabağı fəth edən bir fateh deyil. O, həm də könülləri fəth edən fatehdir. Bu 44 günlük müharibə və ondan sonrakı zaman göstərdi ki, cənab Prezident sədaliyin zirvəsi, zirvəninsə tacıdır. Şəhid olmuş əsgərinin portretini daşıyan, şəhid anasının önündə əyilən, əsgəri canı bilən Ali Baş Komandan, qalib bir sərkərdə, xalqın qəlbində doğan Zəfər Günəşi.

**Qələbəniz mübarək, qələbəmiz mübarək!**

***Elşən QƏNİ, jurnalist***